## Ümumi məlumat

Mərkəzi Laçın şəhəri olan Laçın rayonu zəngin tarixi keçmişi olan bir ərazidir. Rayon 8 avqust 1930-cu ildə təşkil edilmişdir. Laçın şəhəri əvvəllər Abdallar adlanıb və ona 10 avqust 1923-cü ildə şəhər statusu verilib.

Laçın rayonu Azərbaycanın cənub-qərbində, Zəngəzur silsiləsi ilə Qarabağ silsiləsi arasında yerləşir. Laçın şəhərinin Bakı şəhəri ilə şose yolla ara məsafəsi 450 km-dir. Rayon şimaldan Kəlbəcər, şərqdən Xocalı, Şuşa və Xocavənd rayonları ilə, cənubdan Qubadlı rayonu ilə, qərbdən isə Ermənistanın Gorus rayonu (Sunik vilayəti) ilə həmsərhəddir.

Ermənistan-Azərbaycan münaqişəsi XX yüzilliyin tarixinə ən faciəli münaqişələrdən biri kimi daxil olub, onun nəticələri milyonlarla azərbaycanlının taleyinə ciddi təsir göstərib. Erməni quldur dəstələri 1905-1906-cı və 1918-1920-ci illərdə Zəngəzur və Qarabağda, o cümlədən də Laçın bölgəsində kütləvi qırğınlar törətmişlər.

1988-ci ildə Dağlıq Qarabağda erməni separatizmi baş qaldırdıqdan sonra Laçın rayonunun başı üzərində də qara buludlar əsmişdir. 1989-cu il dekabrın 1-də Ermənistan SSR Ali Soveti “Ermənistan SSR-in və Dağlıq Qarabağın birləşməsi haqqında” qərar qəbul edib. 1990-cı il yanvarın 9-da Ermənistan SSR Ali Soveti DQMV-nin sosial-iqtisadi inkişaf planını Ermənistan SSR-in 1990-cı il üçün planına daxil edib.

Ermənistan SSR Ali Sovetinin qərarları Ermənistanın təcavüzkar mahiyyətini açıq-aydın ortaya qoyurdu. Ermənistan nəyin bahasına olursa-olsun Azərbaycan ərazisinin bir hissəsini zəbt etmək istəyirdi.

Ermənistanın hərbi-siyasi rəhbərliyi 1991-1992-ci illərdə Əsgəranın Meşəli kəndində, Şuşanın Malıbəyli və Quşçular kəndlərində, Xocavəndin Qaradağlı kəndində, Xocalı şəhərində, Kəlbəcərin Ağdaban kəndində və digər yerlərdə dinc əhalinin amansız şəkildə sistematik və kütləvi qırğınını, soyqırımını törətməklə, Dağlıq Qarabağda yaşayan azərbaycanlı mülki əhalinin bir hissəsini fiziki cəhətdən məhv etmək, qalan hissəsinin isə müqavimət əzmini qırıb regionu onlardan təmizləmək məqsədi güdürdü.

Bakıda hakimiyyət uğrunda gedən daxili çəkişmələrdən istifadə edən ermənilər, 1992-ci il mayın 8-də Şuşa şəhərinin işğal etdilər. Ermənilərin növbəti hədəfi Laçın rayonu idi. Ermənistan silahlı qüvvələrinin məqsədi işğal etdikləri Azərbaycan torpaqlarında möhkəmlənmək, Qarabağın dağlıq hissəsini Ermənistan Respublikasına birləşdirmək üçün onların arasında dəhliz açmaqdan ibarət idi.

Ermənilər mayın 18-də Dağlıq Qarabağdan kənarda yerləşən Laçın şəhərini də işğal etdilər. Laçın hakimiyyət uğrunda gedən növbəti xəyanətin qurbanı oldu. Dağlıq Qarabağ bölgəsi ilə Ermənistan arasında, ərazisi 1835 kv.km olan Laçın rayonu Ermənistan silahlı qüvvələrinin nəzarəti altına keçdi. Laçının işğalı müharibənin Dağlıq Qarabağ hüdudlarından çıxdığını və Ermənistanın hərbi işğalçılıq niyyətinin daha böyük olduğunu göstərdi.

Ermənilərin “humanitar dəhliz” adlandırdığı bu yol ilə Ermənistandan Dağlıq Qarabağa külli miqdarda silah, döyüş sursatı və hərbi qüvvə gətirildi. İşğal nəticəsində Laçın şəhəri, Qayğı qəsəbəsi və 125 kənddə olan 14745 yaşayış evi, 353 sənaye və kənd təsərrüfatı obyekti, 218

mədəni-maarif müəssisəsi, 160 təhsil müəssisəsi, 131 səhiyyə, 460 ticarət obyekti dağıdılmışdır. O cümlədən, Laçın şəhərində 1340, Zabux kəndində isə 100 ev dağıdılaraq məhv edilib.

İşğal ərəfəsində Laçın şəhərinin təqribən 8 min nəfər əhalisi olub. Şəhərdə 6 ümumtəhsil məktəbi, u.aq bağçası, 4 kitabxana, iki mədəniyyət evi və klub, mərkəzi rayon xəstəxanası, uşaq xəstəxanası və digər sosial obyektlər mövcud olub.

Ümumilikdə işğal nəticəsində rayona 7,1 milyard ABŞ dolları həcmində (1994-cü il üçün qiymətlə) ziyan dəymişdir.

Laçın uğrunda döyüşlərdə 264 nəfər şəhid olmuş, 65 nəfər girov götürülmüş, 225 nəfər əlil olmuşdur. 58736 nəfər laçınlı öz doğma torpağından didərgin düşərək məcburi köçkün kimi respublikanın 58 şəhər və rayonunda məskunlaşmışdır. 6 nəfər laçınlı Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

1994-cü il mayın 12-də atəşkəsə dair razılıq əldə olundu. İşğal illərində Laçın şəhərində evlərin əksəriyyəti dağıdılmışdı. Ermənistan hökuməti fürsətdən istifadə edib, Laçın şəhərində salamat qalan evlərdə Ermənistandan və Suriyadan gələn erməni ailələrini, İraqdan gələn yezidi kürd ailələrini məskunlaşdıımışdı. Laçın rayonunun ərazisi qondarma “Arsax Respublikası”nın ərazisinə daxil edilmiş, şəhər “Qaladərəsi” adının hərfi tərcüməsi olan “Berdzor” adlandırılmışdı.



Azərbaycan 30 ilə yaxın müddətdə ATƏT-in Minsk qrupunun vasitəsi ilə ərazisinin 20%-ni işğal edən Ermənistanla danışıqlar apararaq, münaqişəni sülh yolu ilə nizamlamağa çalışdı. Danışıqlar heç bir nəticə vermədi, əksinə, aydın şəkildə müşahidə edildi ki, Ermənistan tərəfi, sadəcə olaraq, status-kvonu əbədi etməyə çalışır.

Azərbaycan xalqı ötən 30 illik dövr ərzində işğalla barışmadı və ərazi bütövlüyünü bərpa etmək üçün sarsılmaz əzm göstərdi. Ötən dövr ərzində çoxşaxəli və dürüst xarici siyasətin yürüdülməsi, həyata keçirilən regional enerji və kommunikasiya layihələri Azərbaycanın etibarlı

tərəfdaş kimi mövqeyini xeyli gücləndirdi. Bütün bu amillər Azərbaycanın mütləq Qələbəsini tam şərtləndirdi və onun əldə edilməsini zaman məsələsinə çevirdi.

Münaqişənin nizamlanması missiyasını öz üzərinə götürən Minsk qrupunun səmərəsiz fəaliyyəti, təcavüzkara qarşı sanksiyaların tətbiq edilməməsi Ermənistanı şirnikləndirir, hətta işğalçı dövlətin müdafiə naziri "yeni torpaqlar uğrunda yeni müharibə" sözləri ilə Azərbaycanı hədələyirdi. Ermənistanın baş naziri Nikol Paşinyan 2019-cu il avqustun 5-də Xankəndidə "Qarabağ Ermənistandır və nöqtə" açıqlaması ilə çıxış etməsi münaqişənin dinc yolla həll edilməsini istisna etdi.

2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti irimiqyaslı hərbi əməliyyatlara başlamasına, Azərbaycan Ordusunun mövqelərinə və mülki yaşayış məntəqələrinə atəş zərbələri endirməsinə cavab olaraq əks-hücum əməliyyatı başlandı, sonradan "Dəmir Yumruq" adını alan bu əməliyyat Vətən müharibəsinə çevrildi. Azərbaycan Prezidenti 2020-ci il sentyabrın 27-də Vətən müharibəsinin gedişində xalqa ilk müraciətində bütün cəmiyyəti qəti qələbəyə köklədi: ***"Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".***

Oktyabrın 25-nə keçən gecədən başlayaraq ordumuz cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Hadrut, Qubadlı və Laçın istiqamətlərində uğurlu döyüşləri davam etdirərək nəzarətə götürülən əraziləri bir qədər də genişləndirdi. Ermənistan silahlı qüvvələrinin Ağdərə və Xocavənd istiqamətlərindəki bölmələrinə ağır zərbə vurulması nəticəsində düşmən tərəfi xeyli sayda itki verərək geri çəkildi.

Noyabrın 9-da Laçın rayonunun Güləbird, Səfiyan, Türklər kəndləri düşməndən azad edildi.

Müzəffər Azərbaycan ordusu 44 gün davam edən Vətən müharibəsi nəticəsində Ermənistan ordusunu məhv etməyə, onu diz çökdürməyə, işğal altında olan əraziləri azad etməyə nail oldu. Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu tərəfindən icra edilmiş "Dəmir Yumruq" əməliyyatı Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazıldı, işğalçılığı, nasizmin şöhrətləndirilməsini dövlət siyasətinə çevirən Ermənistanın təslim olması ilə nəticələndi.

Azərbaycan Ordusunun əsgər və zabitlərinin canı, qanı bahasına Vətən müharibəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndi daxil olmaqla, ümumilikdə 300-dən çox yaşayış məntəqəsi, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edildi. Qarabağın tacı Şuşa şəhərinin azad edilməsi və Ermənistanın kapitulyasiya aktını imzalamağa məcbur olması ilə müharibə başa çatdı.

2020-ci il noyabrın 10-da "Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatı" qəbul edildi və Ermənistan kapitulyasiya aktını imzaladı. Bununla da Ermənistan-Azərbaycan münaqişəsinə son qoyuldu, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. Azərbaycan Prezidenti bu barədə deyib: ***"Dağlıq Qarabağ münaqişəsi həll olunub, Azərbaycan bu münaqişəni təkbaşına həll edib, həm döyüş meydanında və ondan sonra masa arxasında. Döyüş meydanında qazanılmış Qələbə düşməni məcbur etdi ki, ağ bayraq qaldırsın və təslim olsun, kapitulyasiya aktına imza atsın.***

***Noyabrın 10-da imzalanmış sənəd məhz Ermənistanın kapitulyasiya aktıdır”.*** Beləliklə, bu sənədə əsasən Ağdam, Kəlbəcər və Laçın rayonları şəhid vermədən azad edildi.

Azərbaycanın döyüş meydanında qazandığı böyük qələbə siyasi müstəvidə də öz təsdiqini tapdı – Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını işğaldan azad etmək məcburiyyətində qaldı və bununla da tarixi ədalət bərpa olundu.

1 dekabr 2020-ci ildə Laçın şəhəri, Zabux və Sus kəndləri istisna olmaqla, Laçın rayonunun qalan ərazisi Azərbaycana qaytarıldı.

3 dekabr 2020-ci ildə Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncam imzaladı. Hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilir.



2020-ci il dekabrın 10-da erməni faşizmi üzərində qələbənin təmin edilməsində müstəsna köməyi olan Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Bakıda Zəfər paradı keçirildi.

Vaxt itirmədən işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinə start verildi.

15 fevral 2021-ci il tarixində Prezident İlham Əliyev Həkəri çayı üzərində yerləşən 8 meqavat gücündə “Güləbird” Su Elektrik Stansiyasını işə saldı. Bu stansiya Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcək təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq.

2021-ci il iyulun 7-də imzalanmış “Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən Zəngəzur yaylasının

şərq hissəsində Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonları vahid iqtisadi rayonda – Şərqi Zəngəzur iqtisadi rayonunda birləşdirildi.

28 iyul 2021-ci il tarixində Prezident İlham Əliyev Kəlbəcər və Laçın rayonları ərazisində yol infrastrukturunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzaladı.

16 avqust 2021-ci il tarixində Prezident İlham Əliyev Laçın Beynəlxalq Hava Limanının təməlini qoydu. Laçın Beynəlxalq Hava Limanının tikintisinin 2024-cü ildə tamamlanması planlaşdırılır. Hava limanının uçuş zolağının uzunluğu 3000 metr, eni isə 60 metr olacaq. Aeroportun beynəlxalq standartlara uyğun olaraq layihələndirilən terminal binasının sahəsi 5000 kvadratmetrdir və saatda 200 sərnişinə xidmət edə biləcək. Hava limanı Laçın şəhərinə 30, Şuşaya 70, Kəlbəcərə 60 kilometrlik məsafədə yerləşir. Bu hava limanı strateji təyinatı ilə yanaşı, gələcəkdə regionun turizm potensialının tam inkişafına da imkan verəcək.

2022-ci il avqustun 26-da Rusiya sülhməramlı kontingentinin nəzarətində olan və ermənilərin qanunsuz məskunlaşdıqları Laçın şəhəri, Zabux və Sus kəndləri Azərbaycana təhvil verildi.

20 sentyabr 2022-ci il tarixində Prezident İlham Əliyev Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunun işğaldan azad olunmuş Zabux və Sus kəndlərinin layihələndirilməsi və tikintisi işləri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.



21 sentyabr 2022-ci ildə İlham Əliyev Laçın şəhərində Azərbaycan bayrağını ucaltdı. Həmin gün İlham Əliyev Laçın şəhərində inşa ediləcək “Laçın” qovşaq yarımstansiyasının təməlqoyma mərasimində iştirak etdi.

Prezident İlham Əliyev sentyabrın 21-də Kəlbəcər-Laçın avtomobil yolunun 35-ci kilometrliyində 2400 metr uzunluğunda olan Laçın Beynəlxalq Hava Limanına giriş tunelinin inşası ilə tanış olub.

22 sentyabr 2022-ci il tarixində Prezident İlham Əliyev Laçın rayonu Zabux kənd tam orta məktəb binasının layihələndirilməsi, əsaslı təmiri və bərpası ilə bağlı tədbirlər haqqında Sərəncam imzaladı. Həmin tarixdə dövlət başçısı Laçın şəhəri, 2 nömrəli tam orta məktəb binasının layihələndirilməsi, əsaslı təmiri və bərpası ilə bağlı tədbirlər haqqında Sərəncam da imzalamışdır.

“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2022-ci il tarixli sərəncamına əsasən işğaldan azad edilmiş bütün şəhərlərin baş planları hazırlanıb. Dövlət Proqramının əhatə dairəsini Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan ərazilər təşkil edir.



Qardaş Türkiyənin tikinti şirkətləri işğaldan azad edilmiş ərazələrdə bərpa və tikinti işlərində fəal iştirak edir. Türkiyə şirkətləri Xudafərin-Qubadlı-Laçın və Xanlıq-Qubadlı avtomobil yollarını inşa edir.

Prezidenti İlham Əliyev tərəfindən Laçın rayonunun Güləbird və Qorçu kəndlərinin Baş planı təsdiqlənib. Prezident bildirib ki, birinci mərhələdə Güləbird kəndində 2400, Qorçu kəndində isə 1300 insanın yerləşməsi nəzərdə tutulur. Laçının bütün infrastrukturu yenidən qurulur – su xətləri, kanalizasiya xətləri, elektrik enerjisi xətləri, yollar, Laçın şəhərinin bütün daxili yolları yenidən qurulur. Daxili yolların uzunluğu təqribən 50 kilometrdən çoxdur. Dövlət Sərhəd Xidməti 23 aprel 2023-cü il tarixdə Azərbaycan-Ermənistan sərhədində Laçın rayonu ərazisində Həkəri çayının üzərində “Laçın” sərhəd-buraxılış məntəqəsi quruldu və üçrəngli, ay-ulduzlu dövlət bayrağımız dalğalandırıldı. Bununla da Ermənistandan Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasının qarşısı alındı.



2023-cü il mayın 28-də – Müstəqillik Günü Prezident İlham Əliyev Laçın şəhərinə səfər edib və şəhərə ilk qayıdan laçınlılarla görüşüb. Dövlət başçısı 20 ailəyə yenidən bərpa edilən evlərin açarlarını təqdim edib. Bildirib ki, bütövlükdə 7-8 ay ərzində 700 bina inşa edilib, onlardan 620-si fərdi yaşayış binası, 9-u çoxmənzilli binadır və orada 144 mənzil hazırlanıbdır.

Həmin görüşdə Prezident İlham Əliyev demişdir: ***“Biz sizinlə artıq Laçın şəhərində görüşürük və bundan böyük xoşbəxtlik ola bilməz. Əminəm ki, hamımız bu gün xoşbəxtlik içində yaşayırıq. Böyük nikbinliklə yaşayırıq. Qürur hissi ilə yaşayırıq. Çünki İkinci Qarabağ müharibəsi bizim əbədi qürur mənbəyimizdir. Bu Zəfər bizimlə əbədi olacaq və gənc nəsil, uşaqlar, bax, bu Zəfər qüruru ilə yaşayacaqlar”.***

Laçınlıların doğma şəhərlərinə hissə-hissə geri qayıtmaları həyata keçirilir. 29 noyabr 2023-cü il tarixinədək Laçın şəhərində 363 ailə, yəni 1 389 nəfərin daimi məskunlaşması təmin edilib. Laçın şəhəri “ağıllı şəhər” konsepsiyası əsasında yenidən qurulur. Evlər günəş panelləri ilə təchiz edilir.



Laçın şəhərində təhsil və mədəniyyət müəssisələri, sosial obyektlər yenidən inşa edilmiş, şəhər infrastrukturu formalaşdırılmışdır. Laçına qayıdan əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə tərkibində 46 müəssisəni birləşdirən Aqro və Sənaye Parkı yaradılmışdır.

Vətən müharibəsində əldə olunmuş tarixi qələbəni əbədiləşdirmək və işğaldan azad edilmiş şəhərlərin günlərini təsis etmək məqsədilə Azərbaycan Respublikası Prezidenti 31 iyul 2023-cü il tarixdə Sərəncam imzalayıb. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə

şəhər günlərinin təsis edilməsi haqqında" həmin Sərəncama əsasən hər il avqust ayının 26-sı "Laçın şəhəri günü" kimi təntənəli şəkildə qeyd olunması qərara alınıb.

Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2023-cü il avqustun 26-da Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət Nazirliyinin və Prezidentin Laçın rayonunda xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə Laçın şəhərində Mənzərəli terrasda və Bayraq Meydanının qarşısında keçirilən "Laçın Şəhəri Günü" bayram şənliklərində iştirak ediblər. Onlar "Laçın Şəhəri Günü" bayram şənliklərində təşkil olunan sərgilərlə tanış olub, sənətkarlıq nümunələrinə baxıb, tamaşalar izləyib, tədbir iştirakçıları ilə söhbət ediblər.

Prezident İlham Əliyevin gündəlik qayğısı və nəzarəti sayəsində Laçın şəhəri bu gün öz külündən yenidən doğulur, məğrur və çal-çağırlı günlərinə qayıdır. Bu gün 30 il ərzində Laçına yenidən qovuşmaq ümidilə yaşayan, lakin həmin günü görmədən dünyasını dəyişən laçınlıların ruhları şaddır. Laçın uğrunda canlarını fəda edən döyüşçülərimizin ruhları da şaddır. Laçın şəhəri torpağımıza göz dikən, tarixdən ibrət dərsi götürmək istəməyən düşmənin qarşısında əbədilik sarsılmaz qalaya çevrilib.

**Ədəbiyyat:**

Azərbaycan Sovet Ensiklopediyası. 6-cı cild, Bakı, 1982.

Azərbaycan Respublikasının inzibati-ərazi bölgüsü. Məlumat toplusu. Bakı, 2013.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 31 iyul 2023-cü il.

https://files.preslib.az/projects/zefer/az/rayonlar.pdf

https://armenianvandalism.preslib.az/az_lachin.html

http://lachin-ih.gov.az/az/tarixi.html